Azərbaycan ordusu.- 5 noyabr. S. 7.

# “Hər döyüşümüz qələbədi”



Sabunçu rayonunda böyüyüb, orada təhsil alıb. Məktəblərində, rayonun mədəniyyət ocaqlarında keçirilən tədbirlərdə fəal iştirak edib. Mahiyyəti Vətən olan, torpaq olan belə tədbirlərdə eşitdiklərini düşüncələrinə, düşüncələrindən yaşantılarına köçürüb. "Müharibə nədir, ata?" - sualına aldığı cavablar onun dünya duyumunu genişləndirib, düşüncələrini nizamlayıb. Vətənin nə olduğunu bəlkə də bu suallara aldığı çoxsaylı cavablardan öyrənib.

Ana Vətən deyirik. Mən də Ana Vətənimin keşiyini çəkəcəyim üçün hərbçi olmaq qərarına gəldim. Qərarımı atam-anam da bəyənmişdi, müəllimlərim də...", - deyə Rəşad Məmmədov bildirdi.

Hərbçi oldu Rəşad.

Kursant Rəşad Məmmədov istəyini gerçəkliyə zəhmətiylə yaxınlaşdırırdı. Oxuyurdu, öyrənirdi. Oxuduqlarını, öyrəndiklərini düşüncələrinə hopdururdu. Çöl təlimlərində öyrəndiklərini məsuliyyətlə təkrarlayır, təcrübi olaraq mənimsəyirdi. Zabitlərdən eşitdiyi hər elmi-hərbi fikri aludəliklə yaddaşına yazırdı kursant Rəşad Məmmədov.

"Leytenant hərbi rütbəsi alanda sevincimdən kursant yoldaşlarımı bağrıma basdım. Onların da sevinci sevincimə qarışdı. "Biz torpaqlarımızı işğaldan azad edəcək hərbçilərin sırasında olacağıq" qüruru hamımızı o gündən bu günə yetirdi. Sentyabrın 27-də əks-hücum əməliyyatı başlayan kimi Vətən müharibəsinin iştirakçısıyıq. Əmrləri yerinə yetiririk. Döyüşürük. Qələbə qazananların sırasında biz də varıq", - deyə gənc zabit bildirdi.

Zabit Rəşad Məmmədov deyir ki, bu döyüşlərdə iştirakından qürur duyur, xidməti müddətində bu döyüşü həmişə arzulayıb. Əsgərləriylə hər söhbətdə Ali Baş Komandanın əmriylə döyüşəcəklərini, torpaqlarımızı işğaldan azad edəcəklərini deyir. Bütün əsgərlərinin eyni fikirdə olması ona könül xoşluğu verib. Kaş döyüşlər biz tərxis olunana kimi başlayaydı! Bu istəyi əsgərlərin mənəvi kamilliyinin təsdiqi bilib. Onu da bilib ki, hərbi xidmət əsgəri vətəndaş kimi yüksək səviyyədə formalaşdırır. Bu formalaşma onların Vətən sevgisini kükrədir, dövlətə, dövlətçiliyə sədaqətinin dönməzliyini təsdiqləyir.

"Vətən müharibəsi gedir. Biz də döyüşlərdəyik. Ordumuz döyüş-döyüş irəliləyir, döyüş-döyüş qələbə qazanır. Neçə strateji yüksəkliklər yaşayış məntəqələri, Suqovuşan, Hadrut, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri düşməndən azad edilib. Bunlar Böyük Qələbənin başlanğıcıdı. Ordumuz tam qələbə qazanacaq, torpaqlarımızı işğaldan tamamilə azad edəcək..." - gənc zabitin döyüş əzmini, qələbə ruhunu qazanılan qələbələrin işığı nurlandırır. - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa hər müraciəti ictimaiyyətin orduya inamını, güvəncini kükrədir. Torpaqlarımız döyüş-döyüş azad edilir. Zabit kimi taleyimdən razıyam ki, işğalı sonlandıracaq bu döyüşlərdə mən də iştirak edirəm. Düşmən Azərbaycan Ordusu ilə döyüşə bilmir, buna gücü çatmır. Ordumuzun döyüş əzmini, qələbə ruhunu azaltmaq üçün işğalçı kimi, faşist niyyətli kimi Gəncəyə, Mingəçevirə, Qəbələyə, Bərdəyə raket atır. Dünya dövlətləri buna vaxtında münasibət bildirsəydi, Ermənistan bəlkə də bunu təkrarlamazdı. Ancaq ermənilik xisləti onu müharibəni faşist xarakteri ilə aparmağa vadar etdi. Azərbaycan Ordusu düşmənə bunun əvəzini çox böyük itkilərlə ödətdi.

Döyüşlər davam edir. Azərbaycan Ordusunun hər döyüşü qələbədi. Hərbi qulluqçularımız Ali Baş Komandanın sərkərdəliyi ilə Böyük Qələbə üçün döyüşür!..

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**